# 20 YANVAR FACİƏMİZDƏN DOĞULAN "O GECƏ" POEMASI

*Qanlı yanvar... Bu, tariximizin elə bir səhifəsidir ki, ona təkrar-təkrar qayıtmaq özümüzə qayıdış deməkdir... özümüzü tanımaq, öz gücümüzə, öz sabahımıza güvənmək deməkdir... Bax, bu səbəbdəndir ki, bizlər əzəli mövzuya yenidən üz tuturuq. Həmsöhbətimiz isə oxucularımızın, ədəbi ictimaiyyətin yaxşı tanıdığı şair Ramiz Məmmədzadədi. Biz Ramiz müəllimi bu söhbət üçün təsadüfdən seçməmişik. Hamının bildiyi bir gerçəyi yenidən yada salmaq və o gerçəyin ovqatında da bəzi məqamlara aydınlıq gətirmək üçün üz tutmuşuq Ramiz müəllimə. İstəyirik ki, 20 Yanvar şəhidlərinə həsr etdiyi və elə o qanlı günlərin ağrı-acısı içərisində ölkədə yayımlanan "O gecə" poeması haqqında müəllifin düşüncələrini sizinlə bölüşək.*

**- Bəlkə də bu söhbəti açmaq kimlərəsə xoş gəlməyə bilər. Amma həqiqətən mən də vurğuladığınız məsələyə illərdən bəri içimdə gəzdirdiyim narahat fikirləri söyləmək, bəzi qaranlıqlara aydınlıq gətirmək istəyirəm.**

- Əvvəlcə onu deyim ki, "O gecə" poeması ayrıca bir kitab şəklində 100 min tirajla "Gənclik" nəşriyyatında işıq üzü gördü. 1991-ci ilin yanvarında çap olunan həmin kitabı nəşriyyatın mətbəsindən yük maşını ilə birbaşa Şəhidlər Xiyabanına gətirdilər. Adamlar kitabı göydə götürürdü. Hətta növbələr yaranmışdı. Bunun təbii ki, bir neçə səbəbi var idi. İlk səbəb yaramızın qan verdiyi həmin günlərin özüydü. İkincisi, insanların ürəyi etirazla, eləcə də qisasla elə yüklənmişdi ki, onu boşaltmaq, onu ifadə etmək üçün hər kəs nəsə etməyə çalışırdı. Belə bir vaxtda həmin poema adamların sanki ürəyini boşaltması üçün təsəlliydi. Üçüncüsü də sovet dönəmində kitaba maraq elə formalaşmışdı ki, oxucular yeni nəşrləri səbirsizliklə gözləyirdilər. Bax, belə bir mühitin içərisində kitabın nəşri onun tirajlanmasını, yayılmasını daha da sürətləndirdi. Təsəvvür edin ki, "O gecə" kitabı qısa bir zamanda respublikanın hüdudlarından kənarda da oxunmağa başlandı. Amma dərdimizin poetik ifadəsi bəzi insanları, hələ də öz iç üzlərini pərdələyənləri narahat etmişdi. Ona görə də kitabla bağlı həm mətbuatda, həm də ayrı-ayrı yerlərdə fikirlər səslənməyə başlandı. İlk öncə o vaxtkı "Həyat" qəzetində bir məqalə çap olundu. Məqalənin adı bu günə qədər yadımdadı. Müəllifi A.Mustafazadə olan məqalə "Göz yaşından pul qazananlar" adlanırdı. Öyrəndim ki, məqalənin müəllifi dünyasını dəyişib. Allah rəhmət eləsin. Həmin qəzetin redaktoru da yazıçı Əfqan Əsgərov idi. Məqalə mətbuatda çıxandan sonra mən redaksiyaya gəldim və redaktordan məsələyə aydınlıq gətirməsini tələb etdim. Təəssüf ki, Əfqan Əsgərov bütün günahı müəllifin üzərinə atıb guya məqalədən xəbərsiz olduğunu söylədi. Bunun ardınca ovaxtkı Mətbuat Komitəsi kollegiya iclasında kitabı çap etdiyinə görə, "Gənclik" nəşriyyatının direktoru rəhmətlik Əlican Əliyevə töhmət elan etdi, kitabın redaktoru, Əməkdar incəsənət xadimi Çingiz Əlioğluya isə xəbərdarlıq olundu. Doğrusu, bu addımların niyə atıldığını ilk anlar başa düşmədim. Rəhmətlik Əlican Əliyev həmin məsələ ilə bağlı






müsahibə verərkən vurğulamışdı ki, "O gecə" ilə bağlı verilmiş töhmət mənim üçün "Lenin" ordenindən, "Qırmızı Əmək bayrağı" ordenindən qiymətlidir. Çünki mən şair Ramiz Məmmədzadənin xalqımın faciəsinə həsr etdiyi poemanı çap etmişəm. Bundan qürur duyuram və kitab "Qurani-Kərim" kimi mənim yazı masamın üstündədir". Həmin mövzuyla bağlı o vaxtkı "Kommunist" qəzeti də bir material dərc etmişdi. Həmin qısa informasiyada bildirilirdi ki, "O gecə" kitabının müəllifi Ramiz Məmmədzadə qonorar olaraq ona ödənilməsini nəzərdə tutulan 10 min rublu Şəhidlər Xiyabanın Tikinti Fonduna keçirilməsini xahiş edib. Və vurğulayıb ki, mən şəhid övladlarımıza həsr olunmuş poemanya görə pul alıb bazar-dükana gedə bilmərəm. Həmin pulu ancaq onların xatirəsinə ucaldılan abidəyə xərcləyə bilərəm. Və bir də xatırladım ki, o illərin qəzetləri "Ədəbiyyat və İncəsənət", "İlham" öz səhifələrində poema ilə bağlı çox maraqlı yazılar dərc etdilər. xalq şairləri Bəxtiyar Vahabzadə, Fikrət Qoca və Nəbi Xəzri poemanı çox bəyəndiklərini söylədilər. Hətta Nəbi müəllim vurğuladı ki, "O gecə" kitabından ibarət bağlamalar hazırladıb çalışdığı "Azərbaycanın Xarici Dövlətlərlə Mədəni Əlaqələr Cəmiyyəti"nə gələn qonaqlara da bağışlayır.

**- Ramiz müəllim, bu qəzet yazıları təbii ki, həm ziyalı, həm müəllif kimi sizə öz təsirini göstərməyə bilməzdi. Və mən də sizi yaxından tanıyanlardan biri kimi necə qətiyyətli olduğunuzu və işin sonuna qədər getməkdən çəkinmədiyinizi həmişə izləmişəm. Yəqin ki, bu məsələdə də son nöqtəyə qədər getmisiniz...**

- Bəli, o vaxtlar mən Mərkəzi Komitə Aparatında işləyirdim. Adını çəkmək istəmədiyim iş yoldaşlarımdan biri mənə bildirdi ki, Ramiz, sənin kitabın rəhbərliyin xoşuna gəlməyib, sən ektremistlərdən kitab yazmısan. Bu söz mənə toxundu. Buna görə də həmin adama kəskin şəkildə sual verdim.

- Sən Şəki Şəhər Partiya Komitəsinin ikinci katibi işləmiş İzzət Həmidovu tanıyırsan?

O da bəli dedi. - Hətta çörək də kəsmişəm - söylədi.

- Bilirsənmi, İzzət Həmidov necə şəhid olub? Ondan ekstremist olar? Və yaxud, azyaşlı uşaqlar, məktəblilər, polms işçiləri, səncə onlar ekstremistlərdi? Sualım adını çəkmək istəmədiyim adamı susdurdu. Bundan sonra mən Yazıçılar İttifaqına getdim. Anar müəllimin otağında rəhmətlik Cabir Novruzun iştirakıyla ondan yazılan məqalələrə münasibət bildirmələrini, kitabın müzakirə edilməsini xahiş edəndə Anar müəllim kəskin bir şəkildə vurğuladı ki, kitabını mən də oxumuşam, çox sağ ol ki, onu yazmısan. Kim nə deyir desin, sənin poeman şəhidlərimiz üçün əsl dəyərli söz heykəlidir!

Açığını deyim ki, bu münasibət məni bir az sakitləşdirdi və o vaxtlar Milli Yaradıcılıq Akademiyasına rəhbərlik edən akademik Nizami Süleymanovun təşəbbüsü ilə poemama görə, açıq səsvermə yolu ilə mənə filologiya doktoru diplomu verildi. Bu, mənim üçün çox böyük hədiyyə, çox böyük mükafat idi. Ümumiyyətlə, həmin poema nəşr olunan gündən həm oxucuların, həm də ölkənin o vaxtkı yeganə ekran efiri olan Dövlət Televiziyasının və radiosunun da diqqətini çəkdi. Bu gün də radionun Qızıl fondunda həmin poema saxlanılır və hər il 20 Yanvar günündə səsləndirilir. Sadəcə, naqis adamların məni küreyimdən vurması qəlbimi sızlatdı. Mən bir vətəndaş, bir azərbaycanlı kimi xalqımın, eləcə də mənim faciəmi qələm almışdım, onlar isə mənim əsərimi öz bildikləri formada təqdim etməklə gözdən salmağa çalışmışdılar. Amma gerçək həmişə qalib gəlir. Necə ki, həmin "O gecə" poeması da həm zamanında dünyaya gəlməklə, həm də oxunmaq baxımından qalib gəldi. Burada bir məqamı da əlavə edim ki, həmin poemanı çox hörmətli Şəfəq xanım Əlixanlı ilə şair Məhyəddin Əsgər özlərinə məxsus üslubda dinləyicilərə təqdim etməklə əsərə oxucu marağını daha da artırıblar.

**- Ramiz müəllim, mən də sizin poemanı oxumuşam və o zamandan keçən bu illər ərzində poema yaddaşıma yazılıb. Hətta onun bir hissəsi İlhamla Fərizəyə həsr olunmuşdu...**

- Bəli, bu həm mənim qəhrəmanımın böyük sevgisindən qaynaqlanan duyğuların ifadəsiydi. Həm də mən İlhamın ailəsini tanıyırdım. Onu da xatırladım ki, kitab o dövrün əlifbasıyla, yəni kiril qrafikasıyla çap olunubdu. Düşünürəm ki, onu yenidən latın qrafikası ilə çap edirməyin zamanı çoxdan gəlib çatıb. Bugünkü gənclərimizin, yeni nəslin poema ilə tanış olması üçün bu çox vacib bir şərtdi.

**- Sağ olun Ramiz müəllim. Fikilərinizi bizimlə bölüşdüyünz üçün təşəkkür edirəm.**

- Mən də sizə qəzetinizin kollektinə təşəkkürümü bildirməklə demək istəyirəm ki, bu kitabın nəşrində xüsusi xidmətləri olan Əlican Əliyevə, Aslan Quliyevə və Pərviz Əliyevə Allahdan rəhmət diləməklə şair dostum Çingiz Əlioğluna və kitabın rəssamı Teyyub Qasımova minnətdarlığımı çatdırıram. Çünki bu kitabı məhz onlar faciəni əks etdirən şəkillərlə yüksək poliqrofik bir nəşr nümunəsi kimi ortaya çıxardılar. Təəssüf ki, kitabın ətrafında qarayaxmalar etmək istəyənlər ortaya çıxmadı. Onlar elə öz şeytan qiyafələrində də qaldılar.

*Redaksiyadan: Poemanın İlhamla Fərizəyə aid hissəsini də oxucularımıza təqdim edirik.*

### İLHAM DÜNYASI

**Torpağın köksündə yarası dərin,**
**Bir gündə min oldu dərdi ellərin.**
**Sən düşdün oduna qara yellərin,**
**Ay çiçək ömrünə qıyan Fərizə,**
**Bir deyən olmadı dayan, Fərizə!**

**Hələ toy sırğası qulağındadı,**
**Hələ gül nəfəsin otağındadı.**
**Ruhun bir beşiyin sorağındadı!**
**Dəhşətdir fələklər sayan, Fərizə,**
**Tanrım, sən deyəydin dayan, Fərizə!**

**İlhama qıyanın əli qurusun,**
**Səni qarğıyanın dili qurusun.**
**Yarpağı saralsın, gülü qurusun.**
**Qeyrətin hamıya bəyan, Fərizə,**
**Oyan, mənim balam, oyan, Fərizə!**

**Əbülfət MƏDƏTOĞLU**

---

### *Daha iki hərbi zavod açılacaq*

**Müdafiə Sənayesi Nazirliyində 2017-ci ilin yekunlarına həsr olunmuş kollegiya keçirilib.**

**Nazirliyin mətbuat xidmətindən verilən xəbərə görə, nazir Yavər Camalovun sədrliyi ilə keçirilən iclasda nazirliyin birlik və müəssisələrinin 2017-ci il üzrə istehsal, maliyyə-təsərrüfat fəaliyyətlərinin yekunları və qarşıda duran məsələlər geniş müzakirə edilib.**

**Kollegiyanın sədri Yavər Camalov bildirib ki, 2017-ci ildə Müdafiə Sənayesi Nazirliyi tərəfindən bir sıra işlər görülüb. Belə ki, nazirliyin müəssisələrində yeni növ müdafiə təyinatlı məmulatların istehsalının genişləndirilməsi ilə bağlı 15 məmulat üzrə təcrübi konstruktor işləri başa çatdırılıb və silahlanmaya tövsiyə olunub. Eyni zamanda, qara metal idxalının azaldılması istiqamətində görülən tədbirlər və mütərəqqi metodların tətbiqi nəticəsində qara metalın daxili bazar hesabına təmin edilməsi 12,3 faiz artırılıb.**

**Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan və ötən illərdə aparılan tikinti, yenidənqurma işlərindən sonra istismara verilən 56 istehsal müəssisəsi ilə yanaşı, 2017-ci ilin iyununda 2 istehsalat müəssisəsində də kompleks tamamlanma işləri başa çatdırılıb .Yaxın zamanlarda daha 2 zavodun açılışı nəzərdə tutulur.**

**İclasda nazirliyin birlik və müəssisələrinin rəhbərlərinin hesabatları dinlənildi və müəssisələrin fəaliyyətləri müzakirə edilib.**

**Sonda nazir ölkənin müdafiə sənayesinin Prezident İlham Əliyevin hər zaman diqqətində olduğunu bir daha xatırlatdı və sahənin inkişafı ilə bağlı dövlət başçısı tərəfindən verilən tapşırıqların yerinə yetirilməsi istiqamətində struktur bölmə, birlik və müəssisə rəhbərlərinə müvafiq göstərişlər verib.**

**Ədil**